

Narkomanlığa qarşı mübarizə üzrə yeni Dövlət Proqramı qəbul edildi

3



Nazirlər Kabineti əlillərin dövlət tibb müəssisələrində müalicəsi ilə bağlı qərar qəbul edib

3



Milli Məclisin Səhiyyə komitəsinin iclası keçirilib

4


# TİBB qəzeti

Azərbaycan Respublikası Səhiyyə Nazirliyi

№ 13-14 (677) 31 iyul 2019-cu il    Qəzet 1991-ci ildən nəşr olunur    www.tibbqazeti.az


## Heydər Əliyev Fondunun vitse-prezidenti Leyla Əliyeva Bakının tibb müəssisələrində müalicə alan uşaqlarla görüşüb



2

## Səhiyyə naziri Oqtay Şirəliyev Yardımlıda vətəndaşları qəbul edib




3

## Boy hormonu çatışmazlığı olan uşaqlarla bağlı proqram hazırlanır



5

## Azərbaycan Otorinolarinqologiya Cəmiyyəti beynəlxalq konfederasiyanın tamhüquqlu üzvü seçilib



6


Tel: (994 12) 530 15 15
530 41 67
530 41 68
Faks: (994 12) 530 44 44

ARASH
MEDICAL COMPANY



www.arash.az


### Афоризм

*Кто хочет - ищет возможности. Кто не хочет - ищет причины.*

*Авраам Линкольн*

# Heydər Əliyev Fondunun vitse-prezidenti Leyla Əliyeva Bakının tibb müəssisələrində müalicə alan uşaqlarla görüşüb



Heydər Əliyev Fondunun vitse-prezidenti Leyla Əliyeva Bakıda uşaqların müalicə olunduğu bir sıra səhiyyə ocaqlarında olub.

Öncə **Səhiyyə Nazirliyinin K.Fərəcova adına Elmi Tədqiqat Pediatriya** İnstitutuna gələn



vitse-prezident burada uşaqların müalicə prosesi ilə maraqlanıb.

İnstitutun direktoru Nəsib Quliyev məlumat verib ki, Azərbaycanda ilk yaradılmış şəfa ocaqlarından olan, bir əsrə yaxın vaxt ərzində ana və uşaqların sağlamlığının qorunması kimi mühüm və nəcib işə xidmət edən bu elmi-tibbi müəssisədə hazırda 8 klinik şöbə və bir çox paraklinik bölmələr fəaliyyət göstərir. Azərbaycanın tibb müəssisələri üçün yüksəkixtisaslı mütəxəssislərin və elmi işçilərin hazırlandığı institutda həkim-mütəxəssislər və həkim-rezidentlər üçün mühazirələr də təşkil olunur. Burada təcrübə keçən həkim-rezidentlər ayda bir dəfə pediatriyanın müxtəlif mövzularında tədqimatlarla çıxış edirlər. Yenidoğulanların reanimasiya və intensiv terapiya şöbəsi ölkə üzrə reanimatoloji-neonatoloji mərkəz funksiyasını yerinə yetirir. Tibb müəssisəsi dünyanın aparıcı pediatrik səhiyyə müəssisələri ilə sıx əməkdaşlıq edir, təcrübə mübadiləsi aparır. Son illər ərzində hər il institutun bölmələrində 30 mindən çox uşağa tibbi xidmət göstərilib.

Heydər Əliyev Fondunun vitse-prezidenti burada müalicə alan uşaqlar və onların valideynləri ilə görüşüb, balacalara hədiyyələr təqdim edib. Leyla Əliyeva kollektivə uğurlar arzulayıb, burada müalicə olunanlara şəfa diləyib.

Heydər Əliyev Fondunun vitse-prezidenti Leyla Əliyeva **Ə.Qarayev adına 2 saylı Klinik Uşaq Xəstəxanası**na da gəlib, burada müxtəlif şöbələrdə müalicə



olunan uşaqlarla görüşüb, onların səhhəti ilə maraqlanıb, valideynləri ilə söhbət edib. O, balacalara tezliklə sağalmaq arzulayıb, onlara hədiyyələr bağışlayıb.




L.Əliyeva **Akademik M.Topçubaşov adına Elmi Cərrahiyyə Mərkəzi**ndə də oldu. Burada müalicə alan uşaqlar və onların reabilitasiya prosesi haqqında Leyla xanıma ətraflı məlumat verildi. Mərkəzdə müalicə olunan uşaqlarla görüşən, onları müxtəlif hədiyyələrlə sevindirən Leyla Əliyeva kollektivə uğurlar arzuladı, xəstələrə şəfa dilədi.

Heydər Əliyev Fondunun vitse-prezidenti sonra **B.Eyvazov adına Elmi Tədqiqat Hematologiya və Transfuziologiya İnstitutu**na gəldi. Leyla xanıma İnstitutun fəaliyyəti və burada aparılan müalicə prosesi barədə məlumat verildi. Ölkənin hematologiya və transfuziologiya sahəsi üzrə baş müəssisəsi olan bu müalicə ocağında xəstəliyin diaqnostikasının beynəlxalq standartlara uyğun aparılmasına nail olunduğu bildirildi. Leyla Əliyeva bu səhiyyə müəssisəsində tətbiq edilən distant təhsil layihəsi ilə də tanış oldu.

İnstitutun direktoru Zöhrə Əlimirzəyeva Leyla xanımın Hematologiya və Transfuziologiya İnstitutuna gəlişinin artıq ənənəyə çevrildiyini dedi: «Leyla xanım uşaqları çox sevir, hər gəlişində leykozlu xəstələrin müalicəsi, problemləri, təhsili ilə maraqlanır. Leykemiyalı uşaqların müalicəsi 2-3 il davam edir. İl ərzində xüsusi qayğıya ehtiyacı olan hər uşaq bir neçə dəfə müalicə oluna bilər. Onlar ağır polikimyəvi terapiya kursları alırlar. Xəstələrin stasionar və ambulator müalicəsi kompleks şəkildə, plana uyğun aparılır. Bu dövrdə uşaqlar məktəbə gedə bilmirlər, müəyyən müddət təhsildən yayınırlar, aktiv həyatdan kənarda qalırlar. Bu da uşaqların, onların valideynlərinin psixoloji durumuna mənfi təsir göstərir. Sevindirici haldır ki, bu məsələ Leyla xanımın diqqətindən yayınmadı. Bu gün ölkədə ilk dəfə olaraq Leyla Əliyevanın təşəbbüsü, Heydər Əliyev Fondunun dəstəyi, Səhiyyə Nazirliyinin, Təhsil Nazirliyinin təşkilatçılığı ilə xüsusi qayğıya ehtiyacı olan, hematoloji xəstəliklərdən əziyyət çəkən uşaqlar üçün distant təhsil mərkəzi açılır».

Z.Əlimirzəyeva bu layihənin



həyata keçirilməsi nəticəsində Elmi Tədqiqat Hematologiya və Transfuziologiya İnstitutunda müalicə olunan xəstə uşaqların həmin dövrdə təhsildən yayınmalarının qarşısının alınacağı, fasiləsiz və keyfiyyətli ümumi təhsil



almaq hüququnun, cəmiyyətə inteqrasiyasının, sosial həyata tam adaptasiyasının təmin ediləcəyini diqqətə çatdırdı. Direktor həmçinin onların sosial həyatdan, ünsiyyətdən təcrid olunmayacaqlarını, dostları, qohumları ilə internet vasitəsilə virtual əlaqə saxlayacaqlarını, ölkəmizdə və dünyada baş verən hadisələrdən xəbər tutacaqlarını, istədikləri vaxt psixoloq köməyindən istifadə edərək, psixoloji gərginlikdən xilas olacaqlarını vurğuladı: «İnanıram ki, bu layihə zaman keçdikcə öz bəhrəsini verəcək. Biz xəstə uşaqların valideynləri və İnstitutumuzun kollektivi adından Leyla xanıma öz dərin təşəkkürümüzü bildirir, bu xeyirxah işdə ona uğurlar arzulayırıq».

Heydər Əliyev Fondunun vitse-prezidenti Elmi Tədqiqat Hematologiya və Transfuziologiya İnstitutundan ayrıldıqdan sonra Talassemiya Mərkəzinə gəldi. Burada bildirildi ki, Heydər Əliyev Fondu talassemiya problemi ilə bağlı çox mühüm tədbirlər görür, bu istiqamətdə ixtisaslaşmış peşəkar kadrların yetişməsi üçün zəruri proqramlar həyata keçirir.



Fondun təşəbbüsü ilə yaradılan Talassemiya Mərkəzi bu xəstəlikdən əziyyət çəkən insanların şəfa ocağına çevrilib. Elə mərkəzin yaradılmasında da əsas məqsəd ixtisaslaşdırılmış tibb ocağının və qan bankının təşkili, yüksək ixtisaslı kadrların hazırlanması, talassemiyadan əziyyət çəkən uşaqların təhlükəsiz və keyfiyyətli qan komponentləri ilə, eləcə də tibbi xidmətlə təmin olunmasıdır.

Heydər Əliyev Fondunun vitse-prezidenti Leyla Əliyeva **Talassemiya Mərkəzi**ndə müalicə olunan uşaqlarla görüşdü, onların səhhəti ilə maraqlandı.

**Ü.FƏRZƏLİYEVA**

# Narkomanlığa qarşı mübarizə üzrə yeni Dövlət Proqramı qəbul edildi

Azərbaycan Respublikasının Prezidenti İlham Əliyevin müvafiq Sərəncamı ilə «Narkotik vasitələrin, psixotrop maddələrin və onların prekursorlarının qanunsuz dövriyyəsinə və narkomanlığa qarşı mübarizəyə dair 2019-2024-cü illər üçün Dövlət Proqramı» təsdiq edilib.

Proqramın həyata keçirilməsinə nəzarət və onun icrası zamanı işlərin müvafiq orqanlarla əlaqələndirilməsi Narkomanlığa və Narkotik Vasitələrin Qanunsuz Dövriyyəsinə Qarşı Mübarizə üzrə Dövlət Komissiyasına tapşırılıb.

Dövlət Proqramının həyata keçirilməsi üzrə tədbirlər planında bir sıra bəndlərin icrası Səhiyyə Nazirliyinə həvalə olunub.

O cümlədən, təşkilati tədbirlərdən narkoloji xidmətin keyfiyyətinin yaxşılaşdırılması, narkoloq və tibbi psixoloqların, narkoloji müalicə müəssisələrinin sayının artırılması, reabilitasiya mərkəzlərinin yaradılması Səhiyyə Nazirliyinə tapşırılıb.

Məhkəmə ekspertizası tədqiqatına müxtəlif konsentrasiyalarda çəkməli qarışıqların (siqaret) üzərinə hopdurulmuş şəkildə təqdim olunan psixoaktiv maddələrin kəmiyyət analizlərinin aparılması üçün onların etalon nümunələrinin əldə edilməsi üzrə zəruri tədbirlər görülməsi Səhiyyə Nazirliyi ilə yanaşı, Ədliyyə Nazirliyinə və Azərbaycan Milli Elmlər Akademiyasına (AMEA); narkotikdən sui-istifadə edənlərin aşkarlanması metodlarının təkmilləşdirilməsi ilə bağlı tədqiqatlar aparılması, narkotik vasitələrin və psixotrop maddələrin qanunsuz hazırlanmasında istifadə oluna bilən prekursorları idxal, istehsal və istifadə edən müəssisə və elmi tədqiqat laboratoriyalarının müvafiq monitorinqi Səhiyyə Nazirliyinə və AMEA-ya; narkotik vasitələrin, psixotrop maddələrin və onların prekursorlarının qanuni dövriyyəsinə ciddi nəzarətin təmin edilməsi məqsədilə müvafiq monitorinqlərin aparılması Səhiyyə Nazirliyi ilə yanaşı, Daxili İşlər Nazirliyi, Narkomanlığa və Narkotik Vasitələrin Qanunsuz Dövriyyəsinə Qarşı Mübarizə üzrə Dövlət Komissiyasının işçi qrupuna həvalə olunub.

Narkotik vasitələrin, psixotrop maddələrin və onların prekursorlarının qanunsuz dövriyyəsi və onlardan sui-istifadə ilə əlaqədar mübarizə tədbirlərini daha da gücləndirmək məqsədilə aidiyyəti qurumların əməkdaşlığının möhkəmləndirilməsi və qarşılıqlı fəaliyyətinin təmin edilməsi; belə maddələrin ilkin tədqiqatını və məhkəmə ekspertizasını aparan laboratoriyaların maddi-texniki təminatının yaxşılaşdırılması üzrə tədbirlərin görülməsi; onların qanunsuz dövriyyəsinə və narkomanlığın yayılmasına qarşı mübarizə sahəsində beynəlxalq təcrübədən istifadə etməklə, əməkdaşların peşəkarlığının yüksəldilməsi və təcrübə mübadiləsi məqsədi ilə ixtisaslaşdırılmış seminarların, təlimlərin keçirilməsi kimi bəndlərdə isə Səhiyyə Nazirliyi icraçılardan biridir.

Tədbirlər planının «Qanunvericiliyin təkmilləşdirilməsi» bölməsində narkoistifadəçilər barədə daha dolğun, aydın və konkret məlumatların əldə olunaraq yığılması üçün müasir tələblərə cavab verən yeni qeydiyyat sisteminin işlənilib hazırlanması bəndinin icraçısı Səhiyyə Nazirliyi təyin edilib. Psixoaktiv maddələrin yeni növlərinin yayılması, onların struktur və formalarının müxtəlifliyi nəzərə alınaraq, dövriyyəsi qadağan edilmiş psixotrop maddələrə dair müvafiq siyahıların təkmilləşdirilməsi ilə bağlı təkliflər verilməsi; bu sahəni tənzimləyən normativ hüquqi bazanın təkmilləşdirilməsinə dair təkliflər verilməsi; narkomanlığın erkən müəyyən edilməsi və profilaktikası məqsədilə çağırışçıların və həqiqi hərbi xidmət keçən hərbi qulluqçuların icbari narkoloji müayinədən keçməsi məsələsinə qanunvericiliyə uyğun olaraq baxılması bəndlərində isə Səhiyyə Nazirliyi icraçılardan biridir.

Beynəlxalq tədbirlərdən narkotik vasitələrin qeyri-tibbi qəbulunun profilaktikası işinin səmərəli təşkili məqsədilə beynəlxalq təcrübənin öyrənilməsi, maarifləndirici təlim materiallarının hazırlanması Səhiyyə Nazirliyinə, həmçinin Narkomanlığa və Narkotik Vasitələrin Qanunsuz Dövriyyəsinə Qarşı Mübarizə üzrə Dövlət Komissiyasının işçi qrupuna tapşırılıb. Narkotik vasitələrin, psixotrop maddələrin və onların prekursorlarının qanunsuz dövriyyəsinin və narkomanlığın qarşısının alınmasına dair beynəlxalq konfranslarda, seminarlarda və digər tədbirlərdə aidiyyəti dövlət qurumlarının mütəxəssislərinin iştirakının təmin edilməsi, eləcə də narkomanlığın yayılmasının qarşısının alınması istiqamətində uğurlu strategiyası olan dövlətlərin təcrübəsi ilə tanış olmaq məqsədilə həmin dövlətlərlə əməkdaşlığın genişləndirilməsi digər qurumlarla yanaşı, Səhiyyə Nazirliyinə də həvalə olunub.

Tədbirlər proqramının «Profilaktika, müalicə, reabilitasiya və maarifləndirmə tədbirləri» adlanan bölməsi üzrə narkotik vasitələrdən və psixotrop maddələrdən sui-istifadə edən şəxslərin vaxtında aşkarlanması, könüllülük prinsipi əsasında müalicəsi və sağlam həyat tərzinə qaytarılması işinin təşkilində tibb müəssisələrinin, ərazi polis qurumlarının qarşılıqlı əlaqələrinin genişləndirilməsi və təkmilləşdirilməsi Səhiyyə və Daxili İşlər Nazirliklərinə; narkotik vasitələrin qeyri-tibbi qəbulunun profilaktikası, belə şəxslərin müalicəsi və reabilitasiyası istiqamətində müasir texnologiyaların və yeni üsulların tətbiqi, həmçinin bu tədbirləri həyata keçirəcək mütəxəssislərin peşəkarlığının artırılması Səhiyyə, Ədliyyə və Daxili İşlər Nazirliklərinə; narkomanlar, həmçinin QİÇS və digər viruslara yoluxanlar arasında tibbi-gigiyena, təbliğat və maarifləndirmə işinin gücləndirilməsi aidiyyəti qeyri-hökumət təşkilatlarını cəlb etməklə Səhiyyə və Daxili İşlər Nazirliklərinə; narkomanlığın zərəri barədə zəruri metodiki-tədris vəsaitlərinin hazırlanması və internet resurslarında yerləşdirilməsi Səhiyyə, Daxili İşlər, Təhsil Nazirliklərinə və AMEA-ya həvalə olunub. Həmin bölmə üzrə narkomanlığın cəmiyyətə və insan sağlamlığına zərəri, bu sahədə həyata keçirilən tədbirlər, onların məqsədi və mahiyyəti barədə ictimaiyyətin məlumatlandırılması bəndini Səhiyyə, Daxili İşlər, Gənclər və İdman Nazirlikləri, Ailə, Qadın və Uşaq Problemləri üzrə Dövlət Komitəsi, Narkomanlığa və Narkotik Vasitələrin Qanunsuz Dövriyyəsinə Qarşı Mübarizə üzrə Dövlət Komissiyasının işçi qrupu icra edəcək.

Həmin bölmənin bir sıra digər bəndləri üzrə - Azərbaycan Respublikasının ərazisində dövriyyəsi qadağan olunmuş, məhdudlaşdırılmış və nəzarət edilən narkotik vasitələrdən və psixotrop maddələrdən ibarət olan dərman vasitələri barədə gömrük və sərhəd keçid məntəqələrində elektron, həmçinin yazılı məlumatların yerləşdirilməsi və mütəmadi yenilənməsi; narkotik vasitələrdən və psixotrop maddələrdən sui-istifadə edən şəxslər arasında aparılan profilaktik tədbirlərin keyfiyyətinin və həmin tədbirləri icra edənlərin peşəkarlığının artırılması üzrə ixtisaslaşmış təlimlərin keçirilməsi; belə maddələrdən sui-istifadə edən şəxslərin müəyyənləşdirilməsinə kömək məqsədilə metodiki tövsiyələrin hazırlanması, onlardan istifadənin təşviqi; narkomanlıq xəstəliyindən azad olan insanların cəmiyyətə inteqrasiyası və məşğulluğunun təmin edilməsi; ali, orta ixtisas və peşə təhsili müəssisələrinin, ixtisasartırma və yenidən hazırlanma institutlarının tədris-təlim proqramlarına antinarkomaniya mövzusunun daxil edilməsi, tələbələr üçün ictimai mühazirə və seminarların keçirilməsi; narkotik və psixotrop maddələr haqqında məlumatlılığın artırılması məqsədilə ümumtəhsil məktəblərinin təlim-tərbiyə işləri üzrə direktor müavinləri, sinif rəhbərləri, uşaq birliyi rəhbərləri, məktəb psixoloqları, valideyn komitəsi sədrləri, məktəb-valideyn icmasının üzvləri, müəllim və şagirdləri üçün seminar-məşğələlərin, profilaktik tədbirlərin həyata keçirilməsi kimi bəndlərdə Səhiyyə Nazirliyi icraçılardan biridir. Müasir təbliğat və maarifləndirmə metodlarından istifadə etməklə narkotik vasitələrin, psixotrop maddələrin və onların prekursorlarının qanunsuz dövriyyəsinə və narkomanlığa qarşı təbliğat aparılması; narkomanlıqla mübarizə sahəsində maarifləndirmə tədbirlərinin aparılması məqsədilə təlimçilərin hazırlanması və bu istiqamətdə mexanizmin təkmilləşdirilməsi, habelə mövcud beynəlxalq təcrübənin tətbiqi bəndləri də digər qurumlarla yanaşı, Səhiyyə Nazirliyinə həvalə olunub.

## Səhiyyə naziri Oqtay Şirəliyev Yardımlıda vətəndaşları qəbul edib

**Azərbaycan Respublikasının Prezidenti İlham Əliyevin tapşırığına əsasən, mərkəzi icra hakimiyyəti orqanları rəhbərlərinin bölgələrdə səyyar qəbul günləri təşkil olunur. Bu görüşlərdə vətəndaşların müxtəlif məsələlərlə bağlı müraciətlərinə baxılır, onların həlli istiqamətində tədbirlər görülür.**



Tərtib edilmiş cədvələ uyğun olaraq, Səhiyyə naziri Oqtay Şirəliyevin bu qəbildən növbəti qəbul günü Yardımlı Rayon Mərkəzi Xəstəxanasında keçirilib. Nazir Masallı və Yardımlı rayonlarının sakinlərini qəbul edib, onların sağlamlıq problemləri, işlə təminat və s. məsələlərlə bağlı müraciətlərini dinləyib.

Qəbulda qaldırılan məsələlər nazirliyin müvafiq qurumlarının əməkdaşlarının iştirakı ilə araşdırılıb. Onların bəziləri yerindəcə həll edilib, digərlərinin həlli ilə bağlı göstərişlər verilib.

Nazirliyin səlahiyyətlərinə aid olmayan müraciətlər aidiyyəti üzrə çatdırılmaq üçün qeydiyyata alınıb və nəzarətə götürülüb.

## Nazirlər Kabineti əlillərin dövlət tibb müəssisələrində müalicəsi ilə bağlı qərar qəbul edib

**Baş Nazir Novruz Məmmədov «Dövlət tibb müəssisələrində əlilliyi olan şəxslər üçün dövlət büdcəsi hesabına həyata keçirilməyən tibbi xidmətlərin növləri»nin təsdiq edilməsi barədə Qərar imzalayıb.**

Sənəd «Əlilliyi olan şəxslərin hüquqları haqqında» Azərbaycan Respublikasının 2018-ci il 31 may tarixli 1153-VQ nömrəli Qanununun tətbiqi barədə» Azərbaycan Respublikası Prezidentinin 2018-ci il 18 iyul tarixli Fərmanının 1.1.7-ci yarımbəndinin icrasını təmin etmək məqsədilə imzalanıb.

Bildirilir ki, bu Qərarda dəyişikliklər Azərbaycan Respublikası Prezidentinin 2002-ci il 24 avqust tarixli Fərmanı ilə təsdiq edilmiş «İcra hakimiyyəti orqanlarının normativ hüquqi aktlarının hazırlanması və qəbul edilməsi qaydası haqqında Əsasnamə»nin 2.6-1-ci bəndinə uyğun edilə bilər.

Dövlət tibb müəssisələrində əlilliyi olan şəxslər üçün dövlət büdcəsi hesabına həyata keçirilməyən tibbi xidmətlər aşağıdakılardır:

- xəstəliklərin anonim diaqnostikası (insanın immun çatışmazlığı virusu infeksiyası, sifilis, hepatit B və hepatit C xəstəlikləri istisna olmaqla);
- tibbi kosmetoloji yardım (tibbi göstəriş əsasında plastik və bərpa (rekonstruksiya) əməliyyatları istisna olmaqla);
- tibbi göstəriş olmadan pəhrizlə bağlı müayinə və müalicələr;
- cinsin dəyişdirilməsi ilə bağlı cərrahiyyə əməliyyatı və əməliyyatdan sonrakı müalicələr;
- reabilitasiya ilə əlaqəli olmayan masaj, balneoloji prosedurlar;
- xarici ölkələrə səfərdən (müalicə, reabilitasiya və xidməti ezamiyyət istisna olmaqla) əvvəl tropik xəstəliklərə qarşı peyvəndlərin olunması;
- kontakt linzalarla görmə qabiliyyətinin korreksiyası;
- qiymətli metallardan və keramikadan stomatoloji protezlərin hazırlanması və quraşdırılması.

# Milli Məclisin Səhiyyə komitəsinin iclası keçirilib

**Milli Məclisin Səhiyyə komitəsinin növbəti iclasında komitə sədri Əhliman Əmiraslanov gündəliyə bir sıra qanunlarda dəyişikliklərin edilməsi və icbari tibbi sığorta**



**sisteminin tətbiqi ilə bağlı Koreya Respublikasının təcrübəsi barədə məsələlərin daxil edildiyini bildirib.**

Əvvəlcə «Uşaq hüquqları haqqında», «Narkoloji xidmət və nəzarət haqqında», «Gənclər siyasəti haqqında», «Yetkinlik yaşına çatmayanların baxımsızlığının və hüquq pozuntularının profilaktikası haqqında», «İnsan alverinə qarşı mübarizə haqqında», «Azərbaycan Qızıl Aypara Cəmiyyəti haqqında» və «Təhsil haqqında» qanunlarda dəyişikliklər edilməsi barədə layihəyə baxılıb.

**Parlament aparatının Sosial qanunvericilik şöbəsinin müdiri Adilə Abasova** bildirib ki, «Narkoloji xidmət və nəzarət haqqında» Qanunun bir sıra maddələrində «sosial-psixoloji reabilitasiya» sözləri «psixoloji reabilitasiya və psixoloji korreksiya» ifadəsi ilə əvəz olunur. «Yetkinlik yaşına çatmayanların baxımsızlığının və hüquq pozuntularının profilaktikası haqqında» Qanunun müvafiq maddələrində «sosial, psixoloji və digər kömək» sözləri «Psixoloji yardım haqqında» Qanunla müəyyən edilmiş qaydada «psixoloji yardım, habelə sosial və digər kömək» sözləri ilə əvəzlənir. Bu qanunla bir paketdə daxil olan digər qanunvericilik aktlarında da eyni məzmunlu dəyişikliklər nəzərdə tutulub.

Sonra «Məişət zorakılığının qarşısının alınması haqqında», «Sosial xidmət haqqında», «Dağınıq skleroz xəstəliyinə tutulmuş şəxslərə dövlət qayğısı haqqında», «Həbs yerlərində saxlanılan şəxslərin hüquq və azadlıqlarının təmin edilməsi haqqında» və «Peşə təhsili haqqında» qanunlarda dəyişiklik edilməsi barədə sənəd təqdim olunub. Qeyd edilib ki, həmin qanunlarda hazırkı «psixoloji yardım almaq» ifadəsi təklif olunan variantda «Psixoloji yardım haqqında» Azərbaycan Respublikasının Qanunu ilə müəyyən edilmiş qaydada ödənişsiz psixoloji yardım almaq kimi nəzərdə tutulur.

Diqqətə çatdırılıb ki, yuxarıda adı çəkilən qanunlara edilməsi nəzərdə tutulan dəyişikliklər «Psixoloji yardım haqqında» Azərbaycan Respublikasının 2018-ci il 7 dekabr tarixli Qanunu ilə əlaqədardır. Birinci oxunuşda müzakirəyə çıxarılan qanun layihələri deputatlar tərəfindən müsbət dəyərləndirilərək, Milli Məclisin plenar iclasına tövsiyə olunub.

İclasda **Səhiyyə komitəsinin sədri Əhliman Əmiraslanov** cari ilin iyun ayında Koreya Respublikasına səfəri barədə də danışıb. Bildirilib ki, nümayəndə heyətinə ölkənin aidiyyətli qurumlarının təmsilçiləri daxil idilər. Səfər müddətində nümayəndə heyətinin üzvləri Koreya Respublikasının icbari tibbi sığortanın tətbiqi sahəsində təcrübəsi, bu istiqamətdə göstərilən xidmətlər, bununla bağlı qanunvericilik bazası ilə tanış olublar.

Məlumat verilib ki, hazırda ölkəmizdə icbari tibbi sığorta sisteminin tətbiq olunması üçün hazırlıq işləri həyata keçirilir. Sistemin tətbiqinə 2020-ci ildən başlanılması gözlənilir. Bununla bağlı tibb müəssisələrində də lazımi işlər görülür.

Müzakirələr zamanı çıxış edən deputatlar Musa Quliyev, Qənirə Paşayeva, İlham Məmmədov, Rəşad Mahmudov və Kəmaləddin Qafarov məsələyə dair öz fikirlərini səsləndiriblər. Vurğulanıb ki, tibbi sığortanın ölkə üzrə tam tətbiqi vətəndaşların mənafeyinə xidmət edəcək, onlar keyfiyyətli tibbi xidmətlə təmin olunacaqlar. Qeyd edilib ki, bu sahədə maarifləndirmə işlərinin aparılması böyük əhəmiyyət daşıyır.

Sonra Əhliman Əmiraslanov və iclasda iştirak edən İcbari Tibbi Sığorta üzrə Dövlət Agentliyinin Strateji təhlil departamentinin Statistika şöbəsinin müdiri Tural Qulu deputatları maraqlandıran sualları cavablandırıblar.

# İqtisadi Əməkdaşlıq və İnkişaf Təşkilatının nümayəndə heyəti Milli Oftalmologiya Mərkəzində olub

**İqtisadi Əməkdaşlıq və İnkişaf Təşkilatının (OECD) İnkişafa Yardım Komitəsinin (DAC) nümayəndə heyəti Akademik Zərifə Əliyeva adına Milli Oftalmologiya Mərkəzində olub.**

Görüş zamanı Azərbaycan Respublikasının Beynəlxalq İnkişafa Yardım Agentliyi (AİDA) və Akademik Zərifə Əliyeva adına Milli Oftalmologiya Mərkəzinin 2012-ci ildən bəri Afrika ölkələrində həyata keçirdikləri «Qarşısı alına bilən görmə qabiliyyətinin itirilməsi ilə mübarizə (AFAB)» kampaniyası və Azərbaycan tərəfindən göstərilən yardımların əlaqələndirilməsi məsələləri müzakirə edilib.



Görüşdə iştirak edən OECDDAC-ın İnkişaf Əməkdaşlığı üzrə Direktorluğunun şöbə müdiri Ana Fernandes və analitik Huan Kasado Asensio Milli Oftalmologiya Mərkəzinin həkimlərinin Mərkəzin Afrika ölkələrində humanitar yardım kampaniyaları zamanı fəaliyyətinə yüksək qiymət veriblər.

Qeyd edək ki, OECDDAC dünyada donor dövlətlərini bir araya gətirən ən nüfuzlu beynəlxalq qurum hesab edilir. Ölkəmizin həmin təşkilatda təmsil olunması Azərbaycan tərəfindən göstərilən humanitar və inkişafa yardımın dünya ictimaiyyətinə çatdırılması istiqamətində mühüm əhəmiyyət kəsb edir.

# «Fövqəladə hallarda risklərin kommunikasiyası üçün potensialın artırılması»

## *ÜST Bakıda bu mövzuda seminar keçirdi*




Bakıda Ümumdünya Səhiyyə Təşkilatının (ÜST) təşkilatçılığı ilə «Fövqəladə hallarda risklərin kommunikasiyası üçün potensialın artırılması» mövzusunda seminar keçirilib.

Səhiyyə Nazirliyinin mətbuat xidmətindən verilən məlumata görə, tədbirdə müxtəlif nazirlik, komitə və beynəlxalq təşkilatların nümayəndələri iştirak ediblər.

Seminarın keçirilməsində məqsəd fövqəladə hallarda yaranmış risklər barədə məlumatların mübadiləsi, idarəolunan ötürülməsi, bu məlumatlardan birgə istifadə ilə bağlı maarifləndirilmə, ictimaiyyətin cəlb edilmə yolları, dövlət orqanlarına və respondentlərə olan inamın artırılması kimi mövzularda milli mütəxəssisləri məlumatlandırmaq, bununla da tərəfdaşların fövqəladə hallar zamanı qərarların qəbul edilməsinə dair təcrübə və bacarıqlarını inkişaf etdirmək olub.

# İcbari Tibbi Sığorta üzrə Dövlət Agentliyi tibb müəssisələrində proqram təminatı üzrə təlim keçirir

**İcbari Tibbi Sığorta üzrə Dövlət Agentliyinin İnformasiya Texnologiyaları və İnnovasiyalar İdarəsinin əməkdaşları tibb müəssisələrinin tam idarəedilməsini təmin edəcək proqram təminatından istifadə qaydaları üzrə xəstəxanalarda təlimlər keçirirlər.**

Ölkə başçısının «Azərbaycan Respublikasında icbari tibbi sığortanın tətbiqinin təmin edilməsi ilə bağlı bir sıra tədbirlər haqqında» 2018-ci il 20 dekabr tarixli Fərmanından irəli gələrək tibb müəssisələrinin elektronlaşdırılması və icbari tibbi sığorta sisteminə keçidinin təmin edilməsi məqsədilə aparılan təlimlər hələlik Bakı şəhəri üzrə 19 xəstəxananın (M.Ə.Əfəndiyev adına 2 nömrəli Şəhər Klinik Xəstəxanası, Zabrat və Zirə Müalicə-Diaqnostika Mərkəzləri, 7, 10, 14, 21, 22, 24, 26, 29 və 31 nömrəli Birləşmiş Şəhər Xəstəxanaları, Neyrocərrahlıq Xəstəxanası, Tibbi Reabilitasiya Xəstəxanası, 5 nömrəli Klinik Doğum Evi, Uşaq Bərpa Müalicə Mərkəzi, 8 nömrəli Şəhər Xəstəxanası, 3 nömrəli Uşaq Xəstəxanası, 5 nömrəli Uşaq Yoluxucu Xəstəliklər Xəstəxanası) tibbi personalı üçün təşkil olunub.

Tibb müəssisələrinin fəaliyyətlərinin elektronlaşdırılması məqsədi daşıyan proqram təminatı vasitəsilə xəstəxanalara müraciət edən vətəndaşların onlayn qeydiyyatı aparılacaq. Burada vətəndaşın müraciət etdiyi şöbələr, pasiyentə xidmət göstərən həkimlər, ona təyin olunan müayinə və müalicələr (ambulator və stasionar) barədə məlumatlar öz əksini tapacaq. Həmçinin proqram təminatı vasitəsilə xəstəxanaya müraciət edən şəxsin sığortalı olub-olmamasını da müəyyən etmək mümkün olacaq. Proqramda qeyd edilən diaqnozlar və laborator xidmətlərin elektron olması isə tibbi ekspertizanın aparılmasına imkan yaradacaq.

Təlim zamanı iştirakçılara proqram təminatından istifadə qaydaları izah olunub və hər bir iştirakçıya adına uyğun istifadəçi girişi, şifrəsi təqdim edilib. İştirakçılar şərti olaraq pasiyentin təqdim edəcəyi şəxsiyyət vəsiqəsinin FİN məlumatını istifadə etməklə proqrama məlumatları daxil ediblər. İştirakçılara istifadəçi təlimatı və proqrama daxil olmaq üçün link təqdim edilib, fərdi şəkildə proqrama daxil olaraq növbəti təlimə kimi məşq etmək imkanı yaradılıb.

Hazırlanmış plana uyğun olaraq, icbari tibbi sığorta çərçivəsində fəaliyyət göstərəcək bütün tibb müəssisələrində belə təlimlər keçiriləcək.

# Xaçmaz, Gəncə və Şəkidə reproduktiv sağlamlıq üzrə təlimlər keçirilib

Səhiyyə Nazirliyinin 2019-cu il 17 yanvar tarixli əmri ilə təsdiq olunmuş “2019-cu il üçün Azərbaycan Respublikası Səhiyyə Nazirliyinin mülki müdafiə tədbirləri planı”na əsasən, “Humanitar sahələrdə Reproduktiv Sağlamlıq üzrə Minimal İlkin Xidmətlər Paketinin (MİXP) əlaqələndirilməsi və həyata keçirilməsi üçün milli potensialın artırılması” layihəsi icra olunur. Layihə BMT-nin Əhali Fondu (UNFPA) tərəfindən strateji araşdırmalar, strateji siyasətin işlənib hazırlanması və fövqəladə hallara qarşı hazırlıq sahələrində, Səhiyyə Nazirliyinin İctimai Səhiyyə və İslahatlar Mərkəzi (İSİM) və Elmi Tədqiqat Mamalıq və Ginekologiya İnstitutu ilə birgə əməkdaşlıq çərçivəsində həyata keçirilir.

Layihənin icrası ilə əlaqədar iyul ayında Xaçmaz, Gəncə və Şəki şəhərlərində humanitar sahələrdə Reproduktiv Sağlamlıq üzrə MİXP-nin əlaqələndirilməsi və tətbiqi üzrə treninqlər keçirilib.

Təlimlər İSİM-in Layihələrin əlaqələndirilməsi şöbəsinin müdiri Səbinə Babazadə, Tibbi keyfiyyət standartları şöbəsinin həkim-metodisti Teymur Hüseynov, Elmi Tədqiqat Mamalıq və Ginekologiya İnstitutunun Ambulator-diaqnostika şöbəsinin müdiri Gülnarə Rzayeva və 5 nömrəli Doğum Evinin Qadın məsləhətxanası şöbəsinin müdiri Leyla Məmmədova tərəfindən aparılıb.

Treninqlərdə Xaçmaz, Xızı, Siyəzən, Şabran, Xudat, Gəncə, Qazax, Şəmkir, Tovuz, Şəki, Qəbələ, Oğuz, Zaqatala mərkəzi xəstəxanalarının baş həkimləri, baş həkim müavinləri, mülki müdafiə üzrə qərargah rəisləri və xəstəxanaların ginekologiya şöbələrinin müdirləri, habelə Fövqəladə Hallar Nazirliyinin və Daxili İşlər Nazirliyinin tibb idarələrinin nümayəndələri iştirak ediblər.

Ekspertlər fövqəladə hallarda cinsi və reproduktiv sağlamlıq üzrə tədbirlər, həmçinin cinsi və gender zorakılığı zamanı yardım və dəstək üçün yaranan maneələr, zorakılıq qurbanları üçün təşkil olunan tibb xidmətləri, fövqəladə hallar zamanı insanın immun çatışmazlığı virusu (İİÇV) və cinsi yolla yoluxan infeksiyaların profilaktikası barədə ətraflı məlumat veriblər.

Təlimlər çərçivəsində tibb işçilərinin fövqəladə hallara hazırlığının yoxlanılması məqsədilə simulyasiya keçirilib, göstərilən tibbi yardımlar müzakirə olunub və tibb işçilərinə müvafiq metodiki tövsiyələr verilib.

# «Diaqnostik ultrasəsdə yeni era»



Bakıda «Diaqnostik ultrasəsdə yeni era» adlı beynəlxalq konfrans keçirilib.

Azərbaycan Respublikasının Səhiyyə Nazirliyinin, Əziz Əliyev adına Azərbaycan Dövlət Həkimləri Təkmilləşdirmə İnstitutunun (ADHTİ) təşkilati dəstəyi, «Arash Medical Company» və «Canon Medical Systems» şirkətlərinin sponsorluğu ilə keçirilən mötəbər tədbirə yerli tibb mütəxəssisləri ilə yanaşı, Almaniya, Hollandiya, Portuqaliya və digər ölkələrdən dəvət olunan 200-dən çox qonaq qatılıb.

Yeni nəsil ultrasəs aparatları, onların üstünlükləri, fayda və imkanları haqqında geniş məlumat vermək, fikir və təcrübə mübadiləsi aparmaq məqsədi daşıyan konfransı giriş sözü ilə açan ADHTİ-nin prorektoru, dosent Təyyar Eyvazov tədbirin əhəmiyyətindən, Azərbaycanın ümumdünya səhiyyə sistemindəki mövqeyindən, səhiyyəmizin günü-gündən inkişaf etməsindən, bu yöndə tibbi diaqnostikanın da etibarlılığının mühüm amil olmasından söz açıb.

Sonra əcnəbi mütəxəssislərin - doktor Vesam İbrahim (Hollandiya), doktor Horst Kinkel (Almaniya), doktor Jader Kruz (Portuqaliya) və başqalarının «Yeni üstün vasitələr», «Fokal qaraciyər törəmələrinin xarakterizə olunması», müntəzəm müayinələrdə «Super mikrovascular imaging» və digər mövzularda məruzələri konfrans iştirakçılarının marağına səbəb olub.

Daha sonra «Canon Medical Systems» şirkətinin tədqiqatlara dəstək üzrə qlobal meneceri Minoru Aoki (Yaponiya) Azərbaycanda istifadə olunan müasir tibbi avadanlıqlardan və onlardan istifadə edən həkim heyətinin peşəkarlığının artırılması yolunda atılan ciddi addımlardan danışıb.

Fasilədən sonra qonaqlar foyedə sərgilənən yeni innovativ tibbi avadanlıqlar, cihaz və alətlərlə tanış olublar.

# Uşaqlarda mexaniki ventilyasiya üzrə təlim



**Azərbaycan Tibb Universitetinin (ATU) Tədris Cərrahiyyə Klinikasında həkimlər üçün pediatrik xəstələrdə və yenidoğulmuşlarda ağciyərlərin mexaniki ventilyasiyanın tətbiqinə dair təlim keçirilib.**

Ankara Universitetinin professoru Ömer Erdeve azərbaycanlı həmkarları ilə davamlı olaraq əməkdaşlıq etdiklərini bildirib. O, bir ay əvvəl başladıqları təlimə yenidən tələbat yarandığını və ona görə də kursu davam etdirmək qərarına gəldiklərini söyləyib.

Sonra təlim kursunda türkiyəli mütəxəssislər - dosent Emel Okulu «Tənəffüz fiziologiyası», «Qeyri-invaziv ventilyasiya», professor Tanıl Kendirli isə «Uşaqlarda kəskin tənəffüz çatışmazlığı və müalicə» mövzusunda maraqlı məruzələrlə çıxış ediblər. İnteraktiv keçirilən təlim kursunda iştirakçıların sualları da ətraflı cavablandırılıb.

Həkim-nevroloq, davamlı tibbi təhsil üzrə layihə rəhbəri Mərziyyə Məmmədova bildirib ki, ATU-nun Tədris Cərrahiyyə Klinikası, Elmi Tədqiqat Pediatriya İnstitutu, Ankara Universiteti və «Uptodate İn Medicine» şirkəti ilə birgə təşkil edilən təlim Səhiyyə Nazirliyi tərəfindən akkreditasiya olunub və iştirak edən həkimlərin hər birinə 16 kredit balı veriləcək.

Qeyd edək ki, mühazirələr, interaktiv müzakirələr, kiçik qruplarda aparılan praktik vərdişlərin aşılanmasına yönəlmiş bu təlim kursu həkimlərə pediatrik xəstələrin və yenidoğulanların ağciyərlərinin mexaniki ventilyasiyası sahəsində ən son nailiyyətlərlə tanış olmaq, qabaqcıl üsullardan və klinik təcrübədən bəhrələnmək, praktik bacarıqları mənimsəmək üçün geniş imkanlar verir.

Təlim fərqli mövzulara aid mühazirələrlə və praktik məşğələlərlə öz işini davam etdirib.

# Ümumdünya Hepatit Günü

**Ümumdünya Səhiyyə Təşkilatının (ÜST) qərarı ilə 2010-cu ildən etibarən hər il iyulun 28-i Ümumdünya Hepatit Günü kimi qeyd olunur. Bu gün dünyada hepatit viruslarına qarşı profilaktika və mübarizə tədbirlərinin gücləndirilməsinin stimullaşdırılmasına xidmət edir.**

ÜST-nin məlumatına görə, planet əhalisinin hər üç nəfərindən biri, yəni 2 milyarda yaxın insan hepatitdən əziyyət çəkir. Bəzi ölkələrdə əhalinin böyük hissəsi hepatit A virusu ilə xəstələnib, onda biri isə hepatit B və C viruslarının daşıyıcılarıdır. Dünyada 300 milyon insan xəbərsiz olaraq hepatit virusu ilə yaşayır.

ÜST bütün ölkələri milyonlarla insanın həyatını xilas etmək üçün xəstəliyin diaqnostikası və müalicəsinin keyfiyyətini yüksəltməyə çağırıb. BMT-yə üzv dövlətlər tərəfindən imzalanmış Davamlı İnkişaf Məqsədlərinə uyğun olaraq, hepatitə yoluxanların sayının 2030-cu ilədək 90 faiz azaldılması əsas hədəf seçilib.

Bu il Ümumdünya Hepatit Günü «Hepatitin aradan qaldırılmasına investisiya qoymaq» devizi altında qeyd edilib.

ÜST-nin Avropa bürosu Ümumdünya Hepatit Günü ilə əlaqədar yaydığı məlumatında yay məzuniyyətləri dövründə, xüsusən də, xaricdə dincələn insanlara bu xəstəliyə yüksək yoluxma ehtimalı barədə xəbərdarlıq edib.

Sürətlə artan xəstəliklər qrupuna aid edilən hepatitin A, B, C və başqa növləri var. Hepatitin A növündən adi gigiyena qaydalarına riayət etməklə, yalnız təmizliyinə əmin olunan sudan istifadə ilə, həmçinin əlləri tez-tez sabunla yumaqla qorunmaq mümkündür.

Hepatit B bu xəstəliyə yoluxmuş insanın qanı və ya orqanizmindəki digər maye ilə təmas zamanı ötürülür. Sanitar-gigiyena standartlarına riayət olunmayan yerlərdə manikür, pedikür, pirsinq və ya döymələr zamanı da bu virusa yoluxmaq olar. Yoluxmanın mümkün yollarından biri də intim münasibətdir. Bu, C hepatitinə yoluxmaya da aiddir. Lakin qanköçürmə və stomatoloji prosedurlar zamanı yoluxma ehtimalı daha yüksəkdir. Qanla yoluxan hepatit B və C növlərinin müalicəsi daha çətindir. Xəstəliyə yoluxmamaq üçün steril şpris və iynələrdən, tatuaj və pirsinq zamanı birdəfəlik iynə və əlcəklərdən, dezinfeksiya olunmuş alətlərdən, şəxsi gigiyena vasitələrindən fərdi qaydada istifadə etmək lazımdır. A və B hepatitlərindən ən etibarlı müdafiə vaksinasiyadır.

Hepatit xəstəliyinin müayinə və müalicəsi sahəsində ölkəmizdə də mühüm tədbirlər görülür. Həmin tədbirlərə hepatit viruslarına yoluxanların diaqnozlarının qoyulması, qeydiyyatlarının aparılması, onların dərman preparatları ilə təmin edilmələri və müalicələrinin təşkili daxildir. 2014-cü ildən etibarən Səhiyyə Nazirliyində hepatitlərin profilaktika, diaqnostika və müalicəsinin təşkili üzrə xüsusi komissiya yaradılıb.

# Boy hormonu çatışmazlığı olan uşaqlarla bağlı proqram hazırlanır

**Səhiyyə Nazirliyi və Respublika Endokrinoloji Mərkəzi böyümə hormonu (somatotrop hormon) çatışmazlığı olan uşaqlarla bağlı proqram üzərində işləyir.**

Bu barədə mətbuata məlumat verən Respublika Endokrinoloji Mərkəzinin həkim-endokrinoloqu Nərmin İsmayılova bildirib ki, hazırda üzərində iş gedən proqram təsdiqlənəcəyi təqdirdə boy hormonu çatışmazlığı olan uşaqlar pulsuz dərmanla təmin edilə bilərlər: «Burada məqsəd 14 yaşına qədər boy hormonu çatışmazlığı olan uşaqların dərman müalicəsi ala bilməsidir. Bu hormonun qiyməti baha olduğuna görə, hazırda bütün uşaqların təmin olunması problemi var».

N.İsmayılovanın sözlərinə görə, belə problemi olan uşaqların dövlət proqramı əsasında müalicəyə cəlb olunması üçün onlar pediatr-endokrinoloq tərəfindən yoxlanılmalı, onlara somatotrop hormon çatışmazlığı diaqnozu qoyulmalı və qeydiyyata alınmalıdırlar: «Ona görə yalnız 14 yaşa qədər uşaqlar seçilirlər ki, böyümə zonası açıq və verilən boy hormonunun təsiri olsun. Bu yaşdan sonra isə böyümə zonası bağlanılır. Yəni 16 yaşında artıq böyümə zonası bağlanmış olduğu üçün o hormonu qəbul etməyin təsiri olmur».

Həkim-endokrinoloq bildirib ki, hər qısa boyluluq boy hormonu çatışmazlığı demək deyil: «Fizioloji cəhətdən düzgün qidalanmayan uşaqlar var ki, onların boyları normadan aşağı olur. Həmçinin uşağın boyunun qısalığı genetik amillə - valideynlərin balaca boyluluğu ilə, yaxud digər genetik xəstəliklərlə bağlı ola bilər».

Respublika Endokrinoloji Mərkəzinin həkim-endokrinoloqu qeyd edib ki, son 6 ayda somatotrop hormon çatışmazlığı diaqnozu qoyulmuş və boy hormonuna ehtiyacı olan 125 uşaq nəzarətə götürülüb.

# Azərbaycan Otorinolarinqologiya Cəmiyyəti beynəlxalq konfederasiyanın tamhüquqlu üzvü seçilib



**Brüssel şəhərində Avropa Qulaq-burun-boğaz və baş-boyun cərrahlığı konfederasiyasının konqresi keçirilib.**

Toplantıda Azərbaycan Otorinolarinqologiya Cəmiyyəti bu nüfuzlu beynəlxalq qitə qurumunun tamhüquqlu üzvü seçilib.

Konqresdə həmçinin Əziz Əliyev adına Azərbaycan Dövlət Həkimləri Təkmilləşdirmə İnstitutunun Otorinolarinqologiya kafedrasının dosenti Ramil Həşimli «Müğənnilərdə rast gələnən səs problemləri və onlara yanaşma metodları» məruzəsi ilə çıxış edib. Avropa foniatrlarına Azərbaycan muğamının incəliklərindən bəhs edən natiq onun ifasının səs tellərinə təsirindən, yaratdığı fəsadlardan və onların qarşısının alınması yollarından danışıb.

# Çikaqo Universitetinin professoru Bakıda seminarlar keçirib



**Azərbaycan Tibb Universitetinin geniş beynəlxalq münasibətləri çərçivəsində ABŞ-ın Çikaqo Universitetinin professoru, Amerika İmmunoloqlar Assosiasiyasının və Amerika Mikrobiologiya Cəmiyyətlərinin üzvü Nadim Fazal universitetin müəllimləri üçün müxtəlif mövzularda seminarlar keçirib. Tanınmış mütəxəssis N.Fazalın «Müəllimlərin dərs demək fəlsəfəsi», «Kurikulumun xəritəsi», «Müəllimlərin tələbələri öyrətmə üsulları» mövzularında etdiyi geniş və əhatəli çıxışları dinləyicilər tərəfindən maraqla qarşılanıb.**

«Müasir tibbi təhsil» mövzusundakı növbəti seminarda inkişaf etmiş ölkələrin ali tibb təhsili müəssisələrində tədris zamanı tibbi yeniliklərin nəzəriyyə və təcrübədə necə öyrədilməsi, hansı mərhələlərlə həyata keçirilməsi məsələlərinə geniş toxunulub. Müəllimlərin bu yenilikləri tələbələrə çatdırması üsulları barədə professorun səsləndirdiyi fikirlər müzakirələrə səbəb olub.

Nadim Fazal çıxışlarında müasir üsullarla tədrisin təşkilindən, inkişaf etmiş ölkələrin ali təhsil müəssisələrində tətbiq olunan qaydalardan və özünün qazandığı çoxillik təcrübədən danışıb, konkret nümunələr göstərib.

Yekunda seminarların aktiv iştirakçılarına sertifikatlar verilib.

# ATU ilə Təbriz Tibb Universiteti arasında memorandum imzalanıb

**Azərbaycan Tibb Universitetinin (ATU) nümayəndə heyəti Təbriz Tibb Universitetində olub.**



Nümayəndə heyətinin rəhbəri, ATU-nun tədris və müalicə işləri üzrə prorektoru, professor Sabir Əliyevin sözlərinə görə, üç gün ərzində keçirilən görüşlər iki universitet arasında qarşılıqlı əməkdaşlıq memorandumunun imzalanması ilə yekunlaşıb: «Bu günlər ərzində həmin universitetin rektoru, prorektorları və digər rəsmiləri ilə bir sıra görüşlər keçirdik, ATU haqqında geniş məlumat verdik. Təbriz Tibb Universitetinin simulyasiya mərkəzi və mehmanxanası ilə tanış olduq. Gələcəkdə ATU-dan rezidentlərin kurasiya üçün Təbriz Tibb Universitetinə göndərilməsi məsələsi ilə bağlı tərəflər arasında müzakirələr aparıldı. İlk dövrdə 20-yə yaxın rezidentin bu universitetin fərqli bazalarına göndərilməsinə qərar verildi».

Prorektor memorandumun rektor Gəray Gəraybəyli tərəfindən imzalandığını, orada aparılan müzakirələr nəticəsində sənədə bir neçə əlavə və dəyişikliyin edildiyini vurğulayıb.

Təbriz Tibb Universitetinin rektoru professor Mohammad Hossein Sami qarşılıqlı əməkdaşlıqdan məmnunluğunu ifadə edib. O, əməkdaşlığın hər iki tərəf üçün uğurlu olacağına inandığını bildirib.

# Cəbhə bölgəsində uşaqların müayinəsi aksiyası təşkil edilib



**Azərbaycan Pediatrlar Assosiasiyası Ağdam rayonu istiqamətində «Dörd yol ayrıcı» adlanan ərazidə yaşayan uşaqlar üçün humanitar müayinə aksiyası keçirib.**

Səhiyyə Nazirliyi, Ailə, Qadın və Uşaq Problemləri üzrə Dövlət Komitəsi, Akademik Zərifə Əliyeva adına Milli Oftalmologiya Mərkəzi, Oftalmoloqlar Cəmiyyətinin nümayəndələrinin yaxından iştirakı ilə baş tutan aksiyanın əsas məqsədi həmin ərazidə məskunlaşmağa məcbur olmuş uşaqlar və ailə üzvlərinə yardım göstərmək, onların müayinə və müalicəsini təşkil etməkdən ibarət olub.

Tibb Universitetinin Uşaq xəstəlikləri kafedrasının müdiri, akademik Adilə Namazovanın başçılıq etdiyi, pediatr, uşaq oftalmoloq, stomatoloq və nevropatoloqlarından ibarət 24 nəfərlik həkim briqadası həmin bölgədə yaşayan hər bir uşağı kompleks tibbi müayinədən keçirib, problemi aşkarlanan azyaşlılara müalicə təyin edib, valideynlərə müvafiq məsləhətlər veriblər. Müayinədən keçirilən uşaqların bəziləri ölkəmizin ixtisaslaşmış tibb mərkəzlərinə yönləndiriliblər.

Ümumilikdə aksiyada Ağdamın 18 kəndindən olan 1000-ə yaxın məcburi köçkün iştirak edib. 325 uşaq ödənişsiz olaraq kompleks müayinədən keçirilib. Eyni zamanda, stomatoloqlar tərəfindən 95 uşağın ağız boşluğunun müayinəsi və sanasiyası aparılıb. Məcburi köçkün ailələrinin uşaqlarına hədiyyələr təqdim olunub.

# Regionlarda heyvanlar arasında bruselyoz yayılıb

### *Müvafiq qurumlar buna qarşı tədbirlər görürlər*

**Azərbaycanın bütün regionlarında bruselyoz xəstəliyinin yayılması rəsmi olaraq təsdiqlənib. Bu, ölkə əhalisi arasında bu xəstəliyə yoluxma təhlükəsi ilə bağlı təşviş yaradıb.**

Kənd Təsərrüfatı Nazirliyi yanında Aqrar Xidmətlər Agentliyinin nümayəndəsi Nigar Səfi mətbuata açıqlamasında xəstə heyvanların sayının artmasını vaksinasiya olunmamış heyvanların bazara çıxarılması ilə izah edib. Onun sözlərinə görə, əvvəllər bu xəstəliyə tutulmuş heyvanlar təsərrüfatlardan uzaqlaşdırılırdısa, indi fermerlər bunu etmirlər, son nəticədə isə bruselyoz xəstəliyinin miqyası genişlənir: «Vəziyyəti düzəltmək üçün heyvanlar arasında peyvəndləmə işləri aparırıq, amma hələ ki xəstəliyin azaldığı müşahidə edilmir».

Heyvanlar arasında xəstəliyin yayılması artıq beynəlxalq təşkilatları da narahat edir. Bakumedinfo.com saytının yazdığına görə, BMT-nin ərzaq və kənd təsərrüfatı üzrə təşkilatı (FAO) Azərbaycanda heyvanların xəstələnməsinə nəzarətin təkmilləşdirilməsi üzrə layihəyə başlayır. Layihənin məqsədi ölkəmizdə heyvanların endemik və ekzotik transsərhəd xəstəliklərinin profilaktikasına, diaqnostikasına və erkən aşkarlanmasına cavabdeh olan idarə və müəssisələrin potensialının artırılmasıdır. Bu sahədə milli referens laboratoriyasının və 6 regional sınaq laboratoriyasının əməkdaşları, bir sıra dövlət və özəl müəssisələrdə çalışan baytarlar beynəlxalq və yerli ekspertlərin iştirakı ilə keçiriləcək xüsusi treninqlərdə iştirak edəcəklər.

Azərbaycanın baş epidemioloqu İbadulla Ağayev insanlar arasında da bruselyoz xəstəliyinə rast gəlindiyini söyləyib, əhalini ehtiyatlı davranmağa səsləyib. O bildirib ki, hazırda satışda baytar nəzarətindən kənarda qalan ət və süd məhsullarının satışı hallarına rast gəlinir: «Odur ki, insanlar əti və südü yaxşı qaynatmamış yeməsinlər. Ət və süd məhsullarında bruselyoz infeksiyası olsa belə, qaynadıqdan sonra insan orqanizminə yoluxmur. Eyni zamanda, hər yoldan keçəndən qatıq, pendir almaqdan da çəkinmək lazımdır».

Qeyd edək ki, bruselyoz kənd təsərrüfatı və vəhşi heyvanların, eləcə də insanların xronik gedişli yoluxucu xəstəliyidir. Törədicisi Brusella cinsindən olan bakteriyalardır. Bunların məlum olan 6 növündən 4-ü kənd təsərrüfatı heyvanlarında xəstəlik törədir. İnsanlar üçün daha təhlükəli Brusella melitensis növü sayılır. İnsanlara ət-süd məhsulları vasitəsilə yoluxan xəstəlik sinir və ürək-damar sistemlərini, sümük və oynaqları zədələyir.

# Türkmənistanda MDB ölkələrinin Səhiyyə sahəsində Əməkdaşlıq Şurasının iclası keçirilib

**Aşqabadda Müstəqil Dövlətlər Birliyinə (MDB) üzv ölkələrin Səhiyyə sahəsində Əməkdaşlıq Şurasının XXIX iclası keçirilib. Tədbir bu il Türkmənistanın MDB-də sədrliyi çərçivəsində təşkil edilib.**

